HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

**“Hüquq və İnsan Haqları İnstitutu” publik hüquqi şəxs**

**“Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar”**

## 1. Ümumi müddəalar

1.1. “Hüquq sahəsində elmi məqalələrin tərtib olunmasına dair Qaydalar” (bundan sonra - Qaydalar) Azərbaycan Respublikasında hüquq sahəsində elmi məqalələr (bundan sonra - məqalə) dərc edən jurnallarda müvafiq məqaləyə qoyulan tövsiyə xarakterli nümunəvi tələbləri və çərçivə qaydaları özündə əks etdirir. Qaydaların hazırlanmasının əsas məqsədi keyfiyyətli məqalələrin hazırlanmasına şərait yaradan minimal tələbləri müəyyən etməklə, Azərbaycan hüquq elminin inkişafına töhfə verməkdir.

1.2. Bu Qaydalar “Elm haqqında” Azərbaycan Respublikasının 14 iyun 2016-cı il tarixli Qanunu, “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli Qanunu, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş “Dissertasiyaların tərtibi qaydaları”, digər normativ hüquqi aktlar, ölkədaxili və beynəlxalq təcrübə əsasında tərtib edilmişdir.

1.3. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. Müəllif – məqalənin yaradıcısı olan fiziki şəxs(lər);

1.3.2. Elmi məqalə – aparılmış elmi-tədqiqat işlərinin nəticələrini şərh etmək məqsədilə yekunlaşdırılmış əsər və ya ümumi mövzular üzrə dərc edilmiş digər məqalələrin təhlilinə həsr olunmuş icmal[1];

1.3.3. Elmi plagiat – müəllifini, götürülmə mənbəyini göstərmədən başqasının əsərlərini, elmi kəşf və ixtirasını, səmərələşdirici təklifini, innovasiya məhsulunu tam və ya qismən mənimsəmək, yaxud özününkü kimi təqdim etmək[2];

1.3.4. İddia – bir fikri, nəzəriyyəni və ya tələbi əsaslandıran və ya sübut etməyə çalışan ifadə;

1.3.5. Fərdi məlumatlar – şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat[3];

---

[1] Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Silahlı Qüvvələrin Hərbi Akademiyasının Elmi Şurasının 25 oktyabr 2014-cü il tarixli iclasının Qərarı ilə təsdiq edilmiş “Elmi məqalələrin yazılma metodikası”, Bakı-2015, s.4 https://www.researchgate.net/publication/367188474_ELMI_MQALLRIN_YAZILMA_METODIKASI

[2] “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu, m. 1.0.23.

[3] “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu, m. 2.1.1.

1.3.6. Xüsusi kateqoriyalı fərdi məlumatlar – fiziki şəxsin irqi və ya milli mənsubiyyətinə, ailə həyatına, dini etiqadına və əqidəsinə, səhhətinə və ya məhkumluğuna aid olan məlumatlar[4].

## 2. Məqalənin tərtibatına dair ümumi tələblər

2.1. Məqalənin yazılmasında məqsəd spesifik bir mövzuda ətraflı və dəqiq məlumat vermək, mövzunu analiz etmək, müəllifin şəxsi fikirlərini və mövqeyini (bəzi hallarda tənqidi xarakterli) bildirmək, tədqiqatın nəticələrini və yeni bilikləri müzakirə və qiymətləndirmə üçün elmi ictimaiyyətə təqdim etmək, normativ hüquqi bazanın monitorinqi prosesinə dəstək vermək, hüquqi problemlərin həlli üçün yeni yanaşma və metodlar formalaşdırmaq, normativ hüquqi aktlarda mövcud olan boşluqları və kolliziyaları, o cümlədən sui-istifadə amillərini aşkar etməkdir.

2.2. Məqalənin hazırlanması zamanı aşağıdakı tələblər nəzərə alınmalıdır:

2.2.1. Tədqiq edilməsi nəzərdə tutulan məsələlərin ayrı-ayrı hüquq sahələrinin aktual problemlərini əks etdirməsi, nəzəri və (və ya) praktiki əhəmiyyəti, hüquq elminin müasir çağırışlarına və tələblərinə cavab verməsi, o cümlədən “Elm haqqında” Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində müəyyən edilmiş müvafiq sahədə dövlət siyasətinin əsas prioritetlərinə uyğunluğu;

2.2.2. Tədqiqatın aparılması nəticəsində əldə edilən elmi məhsulun (elmi nəticənin) normayaratma və hüquq normalarının tətbiqi, məhkəmə və hüquq-mühafizə orqanlarının təcrübəsində istifadə edilə bilməsi imkanı.

2.3. Məqalənin bu Qaydaların 2.2-ci maddəsində qeyd olunan tələblərə cavab verməsini təmin etmək məqsədilə aşağıdakı üsul və vasitələrdən istifadə oluna bilər:

2.3.1. Fiziki və hüquqi şəxslərin rəyinin öyrənilməsi üçün sosioloji sorğuların və digər oxşar tədbirlərin keçirilməsi;

2.3.2. Müxtəlif mənbələrdən əldə olunmuş məlumatların (materialların) təhlili:

2.3.2.1. Azərbaycan Respublikasının və xarici ölkələrin normativ hüquqi aktları, belə aktlara dair izahedici memorandumlar (*explanatory memoranda*), rəsmi şərhlər, elmi-praktiki kommentarilər[5] və məqalələr;

2.3.2.2. Beynəlxalq müqavilələr, onların hazırlanması və müzakirəsi zamanı tərtib edilmiş sənədlər və protokollar, habelə onlara dair izahedici qeydlər (*explanatory notes*), elmi-praktiki kommentarilər və məqalələr;

2.3.2.3. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın müddəalarına dair təlimatlar (*guides*), BMT-nin İnsan Hüquqları üzrə Komitəsinin ümumi şərhləri (*general comments*);

2.3.2.4. Dərc olunmuş elmi-tədqiqat işləri və araşdırmalar, tədris vəsaitləri, elmi-praktiki konfrans və digər tədbirlərin materialları;

2.3.2.5. Müvafiq mövzunun aktuallığını, nəzəri və (və ya) praktiki əhəmiyyətini müəyyənləşdirməyə imkan verən digər materiallar (məlumatlar).

---

[4] Yenə orada, m. 2.1.6.

[5] Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı - “Elm”, 2021, 756 s. - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 aprel 2019-cu il tarixli qərarı ilə təsdiqlənmiş və 3 noyabr 2020-ci il tarixli 438 nömrəli qərarı ilə dəyişiklik edilmiş “Azərbaycan dilinin orfoqrafiya normaları” əsasında hazırlanmış nəşr, s. 332

2.4. Məqalənin hazırlanması prosesində aşağıdakı məsələlər xüsusi diqqətdə saxlanılmalıdır:

2.4.1. Mövzunun xarakterinə və mahiyyətinə uyğun gələn tədqiqat metodları seçilməli və onlardan səmərəli istifadə edilməlidir;

2.4.2. Tədqiqatın nəticələri aydın, bir-biri ilə əlaqəli, ardıcıl və dəqiq təsvir edilməlidir;

2.4.3. Tədqiq edilən mövzu ilə bağlı verilən izahlar həm elmi cəhətdən, həm də müvafiq hüquq tətbiqetmə praktikası baxımından əsaslandırılmalıdır (bu məqsədlə bu Qaydaların 2.3-cü yarımbəndində göstərilən mənbələrdən alınan məlumatlardan (materiallardan) istifadə edilə bilər).

2.5. Məqalə A4 (210 mm x 297 mm) formatlı vərəqdə 12 ölçülü Times New Roman şrifti, 1 sətirarası intervalla yazılmalı, minimum 1500, maksimum 7500 sözdən (xülasə istisna olmaqla) ibarət olmalıdır.

2.6. Məqalənin mətni vərəqin göstərilən kənar boşluqları gözlənilməklə tərtib edilməlidir: sol boş sahə – 25 mm; sağ boş sahə – 25 mm; yuxarı boş sahə –25 mm; aşağı boş sahə – 25 mm.

2.7. Məqalə tərtib olunarkən hər bir abzasın ilk sətrində (başlıqlardan sonrakı ilk abzas istisna olmaqla) girinti 15 mm olmalıdır.

2.8. Məqalənin başlığı vərəqin ortasında tünd qara rəngli, 14 ölçülü Times New Roman şrifti ilə və böyük hərflərlə yazılmalıdır.

2.9. Məqalənin strukturuna daxil edilən bölmələrin adları böyük hərflərlə, tünd qara rənglə, vərəqin ortasında yazılır, rum rəqəmləri ilə nömrələnir (Nümunə: **I. GİRİŞ**, **II. ƏSAS HİSSƏ**) Bu zaman bir dərəcəli başlıqlar (Başlıq 1) 14 ölçülü, alt başlıqlar isə (Alt başlıq 1.1.; Alt başlıq 1.1.1.) 12 ölçülü şriftlə yazılmalıdır. Alt başlıqların 3 dərəcədən (1.1.1.) çox olması tövsiyə olunmur.

2.10. Məqalədə tarixlər rəqəmlə və müvafiq olaraq gün, ay, il şəklində yazılır.

2.11. Məqalənin tərtibi zamanı istifadə edilmiş hər hansı materialdan sitat gətirildikdə aşağıdakı qaydaya riayət edilməlidir:

2.11.1. Sitat qısa[6] və ya bir cümlədən ibarət olduqda, mətndə dırnaqlar (“__”) arasında yazılmaqla təsbit edilir və sitatın sonunda haşiyə verilməklə sitatın mənbəyinə istinad verilir. *Məsələn,*

“… Məsələyə dair N.İ.Matuzov münasibət bildirərək qeyd etmişdir ki, “publik hüquq dövlət hakimiyyəti ilə bağlıdır və ayrı-ayrı şəxslərin deyil, bütövlükdə dövlətin və cəmiyyətin mənafelərinin təmin edilməsinə xidmət edir”[8] . Göründüyü kimi...”

2.11.2. Sitat irihəcmli və ya iki və daha çox cümlədən ibarət olduqda, əsas mətnin sol və sağ kənarlarından 5 mm məsafə saxlanılmaqla ayrıca abzasda dırnaqlar (“__”) arasında 10 ölçülü şriftlə yazılır. Sitatın sonunda haşiyə verilməklə sitatın mənbəyinə istinad verilir. *Məsələn,*

> “Xüsusi hüquq isə dövlət hakimiyyəti səlahiyyətlərinə malik olmayan, sərbəst və bərabərhüquqlu subyektlər qismində çıxış edən fiziki və hüquqi şəxslərin fərdi maraqlarına xidmət edir. Xüsusi hüquq münasibətlərinin tərəfləri şəxsi mənafe baxımından çıxış edən fərdi şəxslərdir”[15].

2.11.3. Sitatın mətni dəyişikliklə verildikdə, dəyişdirilmiş hissə (hərf, söz və ya ifadə) kvadrat mötərizələr ([nümunə]) daxilində verilir.

---

[6] Burada “qısa” dedikdə, ümumi uzunluğu iki sətirdən çox olmayan cümlələr və ya ifadələr başa düşülür.

2.11.4. Sitatın mətnindən hər hansı hissə çıxarıldıqda, çıxarılan hissə kvadrat mötərizələr içində qoyulmuş üç nöqtə ([…]) ilə təsbit edilir.

2.12. Məqalə tərtib olunarkən müəllif istifadə etdiyi materiallara, ayrı-ayrı mövqelərin mənbələrinə və müəlliflərinə istinad etməlidir. Müəllifinə və ədəbiyyatına istinad olunmadan özgə materiallardan istifadə edildikdə, məqalə istənilən baxılma mərhələsində müəllifə geri qaytarılır.

2.13. İstinadlar səhifənin aşağı hissəsində, 10 ölçülü Times New Roman şrifti, 1 sətirarası intervalla göstərilməlidir. Müəllifin, əsasən, son 10 ildə nəşr edilmiş əsərlərə istinad etməsi tövsiyə olunur. İstinadlar aşağıdakı formada qeyd edilməlidir:

*Bir müəllifli kitab nəşrləri (Müəllif (soyadı, inisialları). Əsərin adı / – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi.). Məsələn,*

Həsənov, S.M. Korporativ hüquq / – Bakı: Elm və təhsil, – 2018. – 328 s.

*İki və üç müəllifli nəşrlər (Birinci müəllif (soyadı, inisialları). Əsərin adı / Müəlliflər (inisialları, soyadları) – şəhər (iki şəhər olduqda hər ikisi qeyd olunmalıdır): nəşriyyat, – nəşr ili. – həcmi.). Məsələn,*

Paşayev, A.M. Atmosfer proseslərinin fiziki əsasları. Dərslik. / A.M.Paşayev, H.İ.Quliyev, S.H.Səfərov – Bakı: Nafta-Press, – 2007. – 416 s.

*Dörd və beş müəllifli nəşrlər (Üç müəllifin inisialları, soyadları [və b.], əsərin adı – şəhər: nəşriyyat, nəşriyyat yoxdursa [n.y.], – nəşr ili. – həcmi.). Məsələn,*

A.İ.Mustafazadə, E.Ə.Əliyev, O.F.Əfəndiyev [və b.], Beynəlxalq (publik) hüquq kursu. Ümumi hissə. Dərslik – Bakı: Günəş-B, – 2018. – 752 s.

*Beşdən çox müəllifli nəşrlər (Birinci müəllifin inisialları, soyadı [və b.], əsərin adı – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi.). Məsələn,*

R.Ə.Əliyev [və b.], İntellektual sistemlərin qurulma prinsipləri və layihələndirilməsi – Bakı: Nərgiz, – 2005. – 368 s.

*Jurnal məqalələri:*

*Üçədək müəllifi olan məqalələrdə (Müəllif (soyadı, inisialları). Əsərin adı // – şəhər: jurnalın adı, – nəşr ili. Cildin nömrəsi, jurnalın nömrəsi, – s.). Məsələn,*

Vəliyev, İ.V. Mülkiyyət hüququnun konstitusion hüquqi müdafiəsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqaməti kimi // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2021. №1(73), – s. 205-217.

*Üçdən çox müəllifi olan məqalələrdə (Birinci müəllifin soyadı, inisialları. Əsərin adı / Üç müəllifin inisialları və soyadları [və b.] // Jurnalın adı, – şəhər: – nəşr ili. Cildin nömrəsi, jurnalın nömrəsi, – s.). Məsələn,*

Rüstəmov, Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə.Rüstəmov, İ.A.Yolçuyev, Ə.T.Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86.

*Konfrans materialları (Müəllif (soyadı, inisialları), Məruzənin adı // konfransın adı, – şəhər, – tarixi, – nəşr ili, – s.). Məsələn,*

Qədiməliyev A.R., “İslahat” kateqoriyasının sosial-hüquqi gerçəkliyin dəyişdirilməsi forması kimi nəzəri əsasları // “XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar” mövzusunda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşkilatçılığı ilə keçirilən elmi-nəzəri konfrans, – Bakı: – 5 may, – 2021, – s. 185-190.

*Dissertasiyalar (Müəllif (soyadı, inisialları). Dissertasiyanın adı: / iddia olunan elm sahəsi göstərilməklə elmi dərəcə, dis./ – şəhər, il. – həcmi). Məsələn,*

Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s.

*Dissertasiyanın avtoreferatı (Müəllif (soyadı, inisialları). Dissertasiyanın adı: iddia olunan elm sahəsi göstərilməklə elmi dərəcə, dis.avtoreferatı./ – şəhər, il. – həcmi). Məsələn,*

Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: coğrafiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2018. – 26 s.

*Normativ-hüquqi sənədlər (Rəsmi sənədin adı // qəbul edilməsi və dəyişikliklər haqqında məlumat. – Rəsmi dərc edildiyi mənbə). Məsələn,*

Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan dəyişiklik və əlavələr). – Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.

*Yerli məhkəmə qərarları (Qərarı çıxaran məhkəmənin adı. Qərarın adı. Qərarın nömrəsi (varsa). Qərarın qəbul edildiyi tarix). Məsələn,*

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi. Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı. 24.07.2020.

*Beynəlxalq məhkəmələrin qərarları (Qərarın adı (ingilis dilində, kursiv ilə), Qərarı çıxaran məhkəmənin adı. Qərarın nömrəsi (varsa), Qərarın qəbul edildiyi tarix). Məsələn,*

*Rzakhanov v. Azerbaijan*, Avropa İnsan Hüquqları Məhkəməsi. Ərizə № 4242/07, 04.07.2013.

*İnternet resursları (Mənbənin adı. mənbəyə keçid. sonuncu baxılma tarixi (s.b.t.:)). Məsələn,*

“Marka korumasında tescil ve öncelik ikilemi üzerine Yargıtay ve AB kararları ışığında bir inceleme”. https://dergipark.org.tr/tr/download/article-file/3855755. s.b.t.: 17.09.2024.

## 3. Məqalənin strukturu

3.1. Məqalənin strukturunda aşağıdakı elementlər öz əksini tapmalıdır:

- Müəllif haqqında məlumatlar;
- Məqalənin başlığı;
- Xülasə (Abstrakt);
- Açar sözlər;
- Giriş;
- Məqalənin əsas məzmunu;
- Nəticə;
- Əlavələr (əgər varsa – cədvəllər, qrafiklər və s.);
- İxtisarlar və şərti işarələrin siyahısı.

3.2. Məqalənin əvvəlində müəllifin adı, soyadı, elmi dərəcəsi və elmi adı (əgər varsa), fəaliyyət göstərdiyi və ya təhsil aldığı müəssisə, elektron poçt ünvanı göstərilməlidir.

3.3. Məqalənin başlığı qısa olmalı və məqalənin məzmunu barədə məlumat verməlidir.

3.4. Xülasə (abstrakt) məqalənin tərtib olunduğu dildə və bir xarici dildə (rus, ingilis) olmalı, burada məqalənin əsas aspektləri – digər hissələri barədə qısa məlumat, tədqiqatın məqsədi və müəllifin gəldiyi elmi nəticə öz əksini tapmalıdır. Xülasə 100-250 sözdən ibarət olmalıdır.

3.5. Açar sözlər hissəsində məqalənin əsas məzmununu ifadə edən 5-10 söz (ifadə) göstərilməlidir.

3.6. Girişdə problem konkret şəkildə təsvir olunmalı, müəllifin iddiası və məqalənin əsas hissəsində araşdırılacaq məsələ, tədqiqatın məqsəd və vəzifələri öz əksini tapmalıdır.

3.7. Məqalənin əsas hissəsi paraqraflara bölünməlidir. Hər bir paraqrafda onunla əlaqəli hüquqi faktların təhlilinə yer ayrılmalı, iddia əsaslandırılmalı, iddianın isbatı üçün lazımi informasiyalar oxuculara ötürülməlidir. Bu hissədə müəllifə öz mövqeyini göstərməklə yanaşı, digər tədqiqatçıların da mövqelərini qiymətləndirməsi, qeyd edilən arqumentlərdə razılaşdığı və etiraz etdiyi məqamları göstərməsi tövsiyə olunur.

3.8. Nəticə hissəsində bütün bölmələr üzrə təhlil nəticəsində müəllifin gəldiyi ümumi qənaət göstərilməli, təkliflər verilməli və giriş hissədə qoyulmuş suallar cavablandırılmalıdır.

3.9. Əlavələr (cədvəllər, qrafiklər və s.) məqalədə ilk dəfə istinad olunduğu hissədə və ya məqalənin sonunda “Əlavələr” başlığında verilə bilər. Əlavələrin hər biri nömrələnir və “Cədvəl” (“Qrafik” və d.) sözü, onun nömrəsi və adı sağ küncdə yazılır. *Məsələn, Qrafik 1. 2020-2023-cü illərdə qəsdən adam öldürmə cinayətlərinin statistikası.*

3.10. İxtisarlar məqalənin mətnində ilk dəfə istifadədə tam açıqlanmalıdır, hüquqi aktların isə tarixi, nömrəsi və tam rəsmi adı verilməlidir.

3.11. “İxtisarlar” hissəsində məqalədə istifadə olunan bütün ixtisarlar (akronimlər) və abreviaturlar, o cümlədən normativ hüquqi aktların və dövlət orqanlarının (qurumlarının) ixtisar edilmiş adları qeyd olunmalıdır.

## 4. Etik siyasət

4.1. Məqalələr bir jurnalda dərc edildiyi halda, başqa jurnalda və ya məcmuədə dərc edilməməli və ya belə dərc üçün göndərilməməlidir.

4.2. Dürüstlük akademik yazı etikasının əsas prinsiplərindən biridir və bu prinsip tədqiqatçılardan tədqiqatlarının mənbələri, məlumatları və əldə etdikləri nəticələr haqqında tam və doğru məlumat verməyi tələb edir.

4.3. Başqa müəlliflərin işləri, məqalələri və ya ideyalarından mənbə göstərmədən istifadə etməməli, plagiata, ümumiyyətlə, yol verilməməlidir.

4.4. Sitatların ümumi həcmi məqalənin mətninin 15 faizindən çox olmamalıdır.

4.5. Məqalədə təqdim olunan materiallar doğru və dəqiq olmalıdır, yalan və ya yanıldıcı məlumatlardan çəkinmək lazımdır. Tədqiqatın aparılma üsulları və nəticələri aydın şəkildə təqdim edilməlidir.

4.6. Xüsusi kateqoriyalı fərdi məlumatlar da daxil olmaqla, fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi fərdi məlumatlar haqqında qanunvericiliyin tələbləri nəzərə alınmaqla həyata keçirilməlidir.

4.7. Maliyyə, şəxsi və ya digər maraqların toqquşması hallarında, bu barədə müvafiq elmi nəşrin redaksiya heyətinə və ya maliyyələşdirici quruma açıqlama verilməlidir. Hər hansı bir maraqların toqquşması tədqiqatın obyektinə və nəticələrinə təsir göstərsə belə, bu hal tədqiqatın dürüstlüyünü zədələməməli və elmi nəticələrin obyektivliyini sual altına qoymamalıdır.

***31.10.2024***